*EHTİMALLAR, FƏRZİYƏLƏR*

**Fərhad QASIMOV**
**Bakı Dövlət Universiteti**

# MİFİK DÜŞÜNCƏDƏ KOROĞLUNUN YERİ

«Koroğlu» türk xalqları, eləcə də başqa xalqlar arasında geniş yayılan qəhrəmanlıq eprosu, ədəbi-tarixi abidə kimi folklorşünaslıqda uzun zamandan bəri maraq doğurmaqda və elmi ictimaiyyətin diqqətini öz üzərinə çəkməkdə davam edir.

«Koroğlunun şəxsiyyətini müəyyənləşdirmək üçün ilk növbədə eposun hansı dövrdə yarandığını müəyyən etmək lazımdır. Çünki bu eposun ideya-bədii məzmununu və eləcə də tarixi hadisələrlə əlaqəsini müəyyəndəşdirməkdən Koroğlunun tarixi şəxsiyyət olub-olmadığını araşdırmaq çətindir» (1, s.17).

«Koroğlu» dastanı yerli xalq ənənəsinə görə, Təkə boyundan sayılan bir qəhrəman olub XVI yüzilliyin başlanğıcından etibarən yayılmağa başlamışdır.

Koroğlu surətinin tarixi qaynaqlarının qədimə çəkilməsi bir qanunauyğunluqdar. Lakin tarixi gerçəkliklərlə yanaşı, Koroğlu və digər aparıcı surətlərdə mifoloji qatların olduğunu qəti şəkildə söyləmək olar. Koroğlu tarixi həqiqətlərin, gerçəkdə baş verənlərin həqiqi bədii tərənnümünün ifadəsindən doğmamışdır. Oğuznamələrdə də keçmişə üz tutaraq «ol zaman»dan danışıldığı kimi, «Koroğlu»da da əcdadlar çağının-keçmişinin izləri var.

Lakin yeri gəlmişkən, Koroğlu obrazına bir başqa baxış bucağı altında da baxıldığını qeyd etmək lazımdır. «Bir ideal türk qəhrəmanı deyib Koroğlunu «ədalət duyğusu, igidliyi və inancları ilə xalqın könlündə yatan arslan» kimi səciyyələndirən türk ədəbiyyatşünası **Ə.Kabaklı** yazır ki, Behcəd Mahir Əfəndi çox yerlərdə Koroğlunu bir din, bir əxlaq və hətta bir təsəvvüf qəhrəmanı kimi təsvir edir (3, s.49).

Əslində mifoloji düşüncənin, əsatir çağının məhsulu olan yaradıcılıqda mistik elementlər var, yəni mifoloji şüurun bir səciyyəsi də onun mistikliyidir. Bu mənada Koroğlu obrazında təsəvvüf axtararaq onu mifoloji və tarixi laylarla yan-yana qoymaq olmur. Bu, obraz ilə içəridən bağlı məsələdir.

Beləliklə, Koroğlu obrazının təşəkkülündə bir neçə tendensiyanın olduğu görünür. Bunlardan ən başlıca olanları mifoloji və tarixi laylardır. Ancaq bütün hallarda obrazın mifoloji qaynaqlı olduğu görünür. Koroğlu və onun adı ilə bağlı mifoloji mətnlər də bunu göstərir.

1978-ci ildə M.Seyidov «Alı kişi və Koroğlu obrazlarının prototipləri» adlı yazısından sonra Koroğlu surətinin bir daha əsatiri aspektdə araşdırılmasına ehtiyac duyuldu.

Azərbaycan və Anadolu variantlarından fərqli olaraq eposun Orta Asiya variantlarında Koroğlunun möcüzəli doğulması motivi var. Bu cəhət isə özünü

dastan qəhrəmanının sonrakı fəaliyyətində də mifoloji və həmçinin epik cizgilərdə göstərir. Özbək və Türkmən variantında da qəhrəmanın dünyaya gəlişi möcüzəli doğum şəklində baş verir; Goroğlu qəbirdə doğulur, ölmüş anasının döşündən əmərək böyüyür, boy atır.

Vəli Xuluflunun 1927-ci ildə nəşr etdirdiyi «Koroğlu» dastanında - «Toqat səfəri»ndə «Koroğlu Keçəl Həmzəni götürüb, dəlilərin yanına gəldi. Bunlar Keçəli görən kimi şəkləndilər.

- A Gəbr oğlu, bunu haradan tapdın» (8, s.42). Bu sözlərdən aydın olur ki, Koroğluya «gəbr oğlu» (bəzən də «dəli gəbr oğlu») deyirlər. Başqırd dilində «qəbir» sözünün «kəber» şəklində deyilişinə əsaslanaraq bu sözdə Koroğlunun qəbirdə doğulmasının, gorda dünyaya gəlməsinin sönük xatirəsi yaşadığına dair fikir etnik-mədəni sistemin faktları ilə təsdiq olunduğundan doğru sayılmalıdır.

Koroğlunun gorda ölü anadan dünyaya gəlməsi inisiasiya (keçid) mərasimlərində neofitin simvolik olaraq ölüb dirilməsinin ifadəsidir. Yəni qəbirdə doğulma o biri dünyadan gəlməyə, axirəti görməyə və axır nəticədə ölübdirilməyə bərabərdir.

Mifoloji dünya modelində gor yeri simvolizə edir. Gor yeri özündə təcəssüm etdirdiyinə görə yerin yaradıcı, qurucu funksiyaları da ona keçir. Bu funksiya isə əskilərdə torpağa, yerə bitib tükənməz həyat qüvvəsinin, ölümsüzlüyün ali ifadəsi olaraq baxılmışdı. Azərbaycanın bir çox bölgələrində yeni doğulmuş, ancaq çəlimsiz, zəif olan uşağı aparıb köhnə qəbrə qoyar və orada bir gecə saxlarmışlar, çünki bu yolla uşağın tam sağlığına qovuşacağına inanarmışlar.

Sehirli nağıllarda bir küp qarısı var. Küp semiotik baxımdan məhsuldarlıq, artım, dönüb-qayıtma ideyasını özündə birləşdirir. Küpdən dəfn qabı kimi istifadə olunması da bu ideya ilə bağlıdır. Böyük gil küpləri hətta ana bətninin rəmzi bilirdilər. Küp qəbirlərdə basdırılan ölülərin başının yönü küpün ağzı tərəfə, dizləri və başları sinələrinə doğru bükülmüş vəziyyətdə basdırılmışlar. Uşaq da ana bətnində həmin bu vəziyyətdə olur. (9, s.58-59).

Mifopoetik düşüncədə gor ana bətninin eyni kimi düşünülürdü. Dastanda Goroğlunun ölü qadından gorda doğulmasını da onun ölüb-dirilməsinin sitmvolik ifadəsi olaraq görmək lazımdır. Bir «ana bətni» olan həmin gorun isə yeraltı aləmi və geniş mənada yeri simvolizə etdiyi bəllidir.

«Koroğlu» dastanının bir variantında Koroğlunun dilindən verilən şeirdə deyilir:

«Mən bir cəlalıyam, Rövşəndür adım,
Atamın adıdır Xor, anamın Xorişan...» -

M.Seyidov burada Alı kişinin, yəni Rövşənin – Koroğlunun atasının «Xor» adlanmasını təbii sayır: «Ola bilsin ki, dastanın ilk variantlarında Alı «Xor» da adlanmışdır... «Xor «od» demək olan «qor»un fonetik variantıdır... «Xorişan»da da «xor» oddur... Deməli, Koroğlunun ata-anası oddur (10, s.252).

Fikrimizcə, bu adların odla əlaqələndirilməsi özünü doğrultmur. Çünki belə bir yozum Koroğlu obrazının ən alt qatdakı ilkin mifoloji semantikası ilə təsdiqlənmir. «Xor» və «Xorişan» adlarının kökü **Gor** mifologemi ilə bağlanır. Hər iki adın **gor** mifologeminə bağlanması gorda doğulma motivində özünün arxaik mifoloji semantikasına uyğun yozumunu tapır.

İstər türkmən Goroğlusunun qəbirdə doğulması, istər özbək variantında qəhrəmanı ölü ananın qəbrdə dünyaya gətirməsi «xor»un məhz «gor», «qəbir» demək olduğunu söyləməyə əsas verir. Yakutlar məhz şamanların cəsədlərini basdırdıqları sərdabəyə «xorçax» deyərdilər ki, buradakı «xorçax» adının Koroğlunun ata-anasının adlarındakı «xor»la bir köklü olduğu anlaşılır. Buraya «Koroğlu»nun Vəli Xuluflu nəşrində qəhrəmanın «Gəbroğlu», yəni qəbir (gor) oğlu adlanması faktını da əlavə edə bilərik.

Eposda Koroğlunun adını Alı kişinin özünün kor edilməsi ilə bağlamaq düzgün olmazdı. Bu mənada «Koroğlu» adının şumer mifologiyasındakı yeraltı ölüm dünyasının adı «Kur» ilə bağlılıqda axtarılması qanunauyğundur. Şumerdə ölülərin yeraltı dünyasının, oradan axan çayın və o yerlərin hökmdarının adı olan «Kur» türk dillərindəki «gor» və monqol dillərindəki «xüur» sözü mifoloji və dil faktlarına əsasən bir-biri ilə səsləşir.

Türkmənlərin **qör,** azərbaycanlıların **gor**, başqırdların **qür,** özbəklərin **qör** deməsi faktı **gor** sözünün türk mənşəli olduğuna şübhə yeri qoymur. B.Ögəl «Türk mədəniyyət tarixinə giriş»də Koroğluya **məzar** adı ilə bağlı Goroğlu deyilməsi faktını dastandakı mifoloji motivlər sırasına aid edir, «**gor**» sözünü nəzərdə tutaraq «Bu deyiş Anadoluda da vardır» yazır (11, s.424). Lakin şumerdə eyni semantik yüklü **kur** sözünün **gor** anlayışı ilə bağlı və ortaq olduğu da təkzibolunmaz faktdır. Şumer mifik dünya duyumuna görə, insan kölgələri **Kurdan** çıxıb yer üzünə gələ bilirlər.

Vəli Xuluflunun nəşrində Kür çayının adının Koroğludan qalması hadisəsi də diqqəti çəkir. «Yeraltı dünyanın qəzəbli, qorxusaçan tanrısı Kur və oradakı eyni adlı çay Azərbaycan dilində xarakter bildirən mənfi çalarlı «Kür» sözü və Kür çayının adı ilə səsləşməkdədir» (3, s.233).

Deməli şumerlərin «Kur» dedikləri yeraltı ölüm dünyası ilə Kür çayının adı ilə əlaqələndirilən Koroğlu, onun doğulduğu yeraltı dünya - Gor arasında mifoloji semantikaya görə dərin bir bağlılıq vardır.

Bu mənada Koroğlu adındakı **kor** hissəsini C.Öztellinin «parlaq atəş» demək olan **qor** (**kor**) sözü ilə əlaqələndirməsi adın türk mifoloji düşüncəsində daşıdığı simvolikanın məzmununu ifadə etmir (13, s.677).

Maraqlıdır ki, tarixin yaradıcıları sayılan şumerlərdə «Koroğlu //Goroğlu» adındakı gor mifologeminin əlaqəli olduğu yeraltı ölülər dünyasının adı «**Kur**» sözünün ilkin mənası dağ deməkdir [14, s.87). Həmin məna «kurqan» sözünün kökündə qalmışdır. Təsadüfi deyil ki, «kurqan» bolqarcada elə «gor» deməkdir.

Şumerin «yeraltı qaranlıq dünya» anlamı verən «Kur» sözü ilə aydın yozumunu tapan «Goroğlu» adının Şərq variantlarındakı **Koroğlu** şəkli dağ ruhu vasitəsilə **«kur»** sözünün şumercədəki ilkin **«dağ»** mənasıyla da açıqca bağlanır və elə şumerlərdə «kur»un həm «yeraltı qaranlıq dünya», həm də «dağ» mənası ifadə etməsi Goroğlu //Koroğlunun həm yeraltı qaranlıq dünyada - gorda doğulması və həm də dağ ruhunun oğlu olması ilə eyniyyət təşkil edir. Həmin bağlılığı sxematik şəkildə belə göstərmək olar:




Belə bir nəticəyə gəlmək olar ki, qəhrəmanın Koroğlu adlanması sadəcə Alı kişi adındı bir ilxıçının gözlərinin kor edilməsi ilə bağlı deyil, Azərbaycan variantında dastan ənənəsini yaşadan aşıqlar Koroğlunu tarixi şəxsiyyət kimi təqdim etməyə çalışdıqlarından möcüzəli şəkildə doğuluşu bir motiv kimi artıq saymışlar. Rövşənin Koroğlu adıyla çağırılması isə əski cəmiyyətin həyatında mühüm yeri olan inisiasiya aktı ilə bağlı hadisədir.

**ƏDƏBİYYAT**

1. Nəbiyev A. Qəhrəmanlıq səhifələri. Bakı, Gənclik, 1975.- 98 s.
2. Cəfərov N. Eposdan-kitaba. Bakı, Maarif, 1999.- 220 s.
3. Kabaklı A.Türk edebiyyatı. I cilt, İstanbul, 1994, 435 s.
4. Gözəlov F. (Bayat). Koroğlu obrazının formalaşmasında xalq sufizmi mərhələsi. «Ulduz» jurnalı, 1999, №1, s.73-83.
5. Tantəkin M.H. Koroğlu-Odoğlu. «Ulduz» jurnalı. Bakı, 1967, №6.
6. Vəliyev K. Azərbaycan folkloru: problemlər, vəzifələr. Sözün sehri. Bakı, Yazıçı, 1986. – 303 s.
7. Azərbaycan mifoloji mətnləri. (Tərtib edəni, ön sözün, şərhlərin müəllifi A.Acalov). Bakı, Elm, 1988.- 196 s.
8. Koroğlu (Vəli Xuluflu nəşri). Bakı, Elm, 1999.- 200 s.
9. Məmmədov C. Türk epik ənənəsində Qorqut Ata. (Namizədlik dissertasiyası). Bakı, 1994.- 138 s.
10. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, Yazıçı, 1989. – 496 s.
11. Ögel B. Türk kültür tarihine giriş. Cilt IX, Ankara, 1991.- 486 s.
12. Acalov A. Domrul boyunun kökləri və mifoloji simvolikası. //Azərbaycan filologiyası məsələləri. Bakı, Elm, 1983, 270 s.
13. Öztelli C. Yeni bilgilerle «Koroğlu». Türk dili dergisi. Sayı: 209, Şubat 1969, s.675-680.
14. Дьяконов И.М. Языки древней Передней Азии. М., Наука, 1967.- 492 с.

**Фархад Гасымов**

**Место Кероглу в мифологическом мышлении**

**РЕЗЮМЕ**

Широко распространенный в устной литературе тюрксих народов эпос «Кероглу» привлекает внимание научной общественности в различных аспектах. Необходимаость рассмотрения эпоса с мифологической точки зрения также вызывает интерес.

В статье рассмотрен образ Кероглу с мифологической точки зрения, изучена связь этого образа с мифологическими источниками, и таким образом выдвинута на первый план актуальность изучения этого эпоса не только в фольклорном, но и в мифологическом аспекте.

**Farxad Qasimov**

**The place of Keroqlu in mythological**

**S U M M A R Y**

The epos "Keroqlu" is very prevalent in folk poetry of turkish peoples and it attracts attention of scientific society in different aspects. The necessity to regard it from mythological view also calls the interest.

In the article is regards the Keroglu type on mythological view, researches the connection this type with mythological source, and andvance on first plan the acyuality to research this epos not only of folkloristic view, but on also on mythological aspect.